# Heydər Əliyev Fondunun təşkil etdiyi bayram şənliyində uşaqlar sevinc dolu anlar yaşayıblar



Heydər Əliyev Fondu “Buta” sarayında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaqlar üçün ənənəvi bayram şənlikləri keçirib.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 30-da keçirilmiş bayram şənliyində iştirak ediblər.

Bayram şənliklərinə uşaq evləri və internat məktəblərinin yetirmələri, sağlamlıq imkanları məhdud olan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən uşaqlar, eləcə də təhsildə fərqlənən məktəblilər dəvət olunublar. Şənlikdə iştirak edən uşaqların “Buta” sarayına gəlib-getmələri üçün xüsusi avtobuslar ayrılıb.

Bayram şənliyi ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşündən, gənc nəslə diqqət və qayğısından bəhs edən videoçarxın nümayişi ilə başlanıb.

Şənlik iştirakçılarına yeni tərtibatda hazırlanan proqram təqdim edilib. Bu proqram və balacalar üçün qurulan, əsl bayram ab-havası yaradan dekorasiyalar uşaqların əhval-ruhiyyəsini daha da yüksəldib. Bərbəzəkli sarayda rəqslərə qoşulan, mahnılar oxuyan, məharətlərini göstərən, möcüzələrə heyrət edən uşaqların sevinci hədsiz olmuşdur.

Bayram şənliyində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva valideynlərə, müəllimlərə və uşaqlara müraciətlə çıxış etmişdir. Mehriban xanım Əliyeva əvvəlcə tədbirə toplaşanları əziz bayramlar münasibətilə təbrik etmiş və çıxışına davam edərək demişdir: «2014-cü ili ölkəmiz uğurla yola salır. Azərbaycanda quruculuq, inkişaf işləri davam edir. Bu gün hər birimiz fəxr edirik ki, biz müstəqil, azad, güclü Azərbaycanda yaşayırıq. 2014-cü ildə dünyanın müxtəlif yerlərində böhran, qarşıdurmalar, toqquşmalar baş verib. Amma bizdə-- Azərbaycanda hər bir insan sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb... Bizim ən böyük arzumuz, əlbəttə, uşaqlarımızı, gənclərimizi savadlı, təhsilli və sağlam görməkdir».

Mehriban xanım Əliyeva daha sonra çıxışında uşaqları bu gün yüksək və belə gözəl əhval-ruhiyyədə gördüyündən şad olduğunu bildirmiş, Heydər Əliyev Fondunun hər zaman uşaqların asudə vaxtının səmərəli təşkili ilə bağlı tədbirlər hazırlamaq üçün hazır olduğunu bildirmişdir.

Şənliyin sonunda hər bir iştirakçıya Heydər Əliyev Fondunun hazırladığı bayram hədiyyələri təqdim olundu.

Fondun balacalara hədiyyə etdiyi bu qış nağılı isə uşaqların yaddaşında silinməz iz qoydu. Üç gün davam edən bayram şənliyində 2 mindən çox uşaq və məktəbli iştirak edib.

# Qəbələdə bayram şənlikləri

Dekabrın 30-da Qəbələ şəhərində «Sport» hoteldə 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni ilə həsr olunan bayram tədbiri keçirilib.





Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova ilk öncə məclis iştirakçılarını 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etmiş və xoş arzularını bildirmişdir.

Bayram tədbirində iştirak edən rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev Dünya Azərbaycanlılarının Həmprəylik Günü və Yeni il münasibətilə məclis iştirakçılarını, həmçinin bütün qəbələliləri təbrik etmişdir. O, bu günün əhəmiyyətindən, son illər respublikamızın, o cümlədən doğma Qəbələmizin bütün sahələrdə qazandığı uğurlardan, bu işdə dünyada yaşayan soydaşlarımızın töhfələrindən danışıb.

Səbuhi Abdullayev Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün ümumxalq bayramı kimi qeyd olunmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb. Bildirib ki, 1991ci- il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ulu öndərin təşəbbüsü ilə 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliy Günü elan eldilib. Dahi şəxsiyyət Heydər Əliyevin xalqımızın birliyi və həmrəyliyinə yönəlmiş ideyalarının əbədi yaşayacağını qeyd edən başçı deyib ki, Prezident cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti milli diasporun formalaşmasında, onun mütəşəkkil hərəkata çevrilməsində mühüm rol oynayır.

Səbuhi Abdullayev eyni zamanda Prezidentin ölkəmizin inkişafı ilə bağlı siyasətini yüksək qiymətləndirmişdir.

2014-cü ilin rayonumuz üçün müvəffəqiyyətlə başa çatmaqda olduğunu söyləyən Səbuhi Abdullayev sənayenin, kənd təsərrüfatının, turizmin, tikinti-quruculuq işlərinin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələrini qeyd edib. Səbuhi Abdullayev məclis iştirakçılarını 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bayramı və Yeni il münasibətilə təbrik edərək 2015-ci ilin xalqımız üçün uğurlu olacağına əminliyini bildirmişdir. Cənab Səbuhi Abdullayev Milli Məclisin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərovun bu əlamətdar bayram və Yeni il münasibətilə təbrikini məclis iştirakçılarına çatdırdı.

Sonda Səbuhi Abdullayev idman yarışlarında qalib gələn 5 nəfər idmançıya fəxri fərmanlar və hədiyyələr təqdim etdi.

Bir sözlə, 31 dekabr—Dünya Azərbaycanlılarının Həmrəyiyi Günü və Yeni il münasibətilə «Sport» hoteldə keçirilən musiqili-əyləncəli bayram tədbiri iştirakçılarda xoş ovqat yaratmışdır.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**